## *MƏKTƏBƏQƏDƏR TƏHSİL*

UOT 373

***Rüxsarə Eldar qızı Tağıyeva***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı mütəxəssisi*

# ERKƏN YAŞ QRUPLARINDA TƏLİMİN TƏŞKİLİ MƏSƏLƏLƏRİ

.

***Рухсара Эльдар гызы Тагиева***
*ведущий специалист*
*Института Образования Азербайджанской Республики*

# ВОПРОСЫ ОРГАНИЗАЦИИ ОБУЧЕНИЯ В МЛАДШИХ ВОЗРАСТНЫХ ГРУППАХ

***Rukhsara Eldar Taghiyeva***
*leading specialist at the*
*Institute of Education of the Republic of Azerbaijan*

# ISSUES OF ORGANIZATION OF TRAINING IN EARLY AGE GROUPS

**Xülasə.** Məqalə uşaqların erkən yaş dövründə inkişafı və onların təliminin təşkili məsələlərindən bəhs edir. Erkən yaş dövründə uşaqların təliminin təşkil olunmasının xüsusiyyətləri, prinsip və metodları müəlliflər tərəfindən tədqiqata cəlb olunmuşdur. Mühüm bir tədqiqatın nəticəsi kimi özünü göstərən məqalə məktəbəqədər təhsil müəssisələrində fəaliyyət göstərən əməkdaşlar üçün çox faydalıdır. Xüsusilə erkən yaş dövründə uşaq inkişafı, sensor qabiliyyətlər, motorikanın inkişafı xüsusilə araşdırılmış, uşaqların təlimi üçün vacib olan nüanslar qeyd edilmişdir. Təlim zamanı tətbiq olunan metodlar, oyunlar, inkişafetdirici tapşırıqların əhəmiyyəti məqalədə diqqətə çatdırılmışdır.
***Açar sözlər:*** *məktəbəqədər təhsil, körpəlik yaş dövrü, təhsil, inkişaf, didaktik məşğələlər*

**Резюме.** Статья рассматривает развитие детей в раннем возрасте и организацию их обучения. Особенности, принципы и методы организации обучения детей в раннем возрасте привлечены авторами к исследованию. Статья, являющаяся результатом важного исследования, очень полезна для сотрудников, работающих в дошкольном образовании. Особенно в раннем возрасте изучались детское развитие, сенсорные способности, двигательное развитие, отмечались нюансы, важные для обучения детей. В статье подчеркнута важность применяемых в обучении методов, игр и развивающих задач.
***Ключевые слова:*** *дошкольное образование, младенчество, воспитание, развитие, дидактические занятия.*

**Summary.** The article describes the development of children at an early age and the organization of their education. The characteristics, principles and methods of organizing early childhood education are involved in the study by the authors. This article, which is the result of important research, is very useful for employees who working in early childhood education. Especially at an early age, children's development, sensory abilities, motor development have been studied, nuances important for the learning of children have been noted. The article emphasizes the importance of the methods, games and developmental tasks used in the training.
***Key words:*** *preschool education, infancy, upbringing, development, didactic lessons.*

Erkən uşaqlıq dövrü inkişafı (EUDİ) anadan olandan məktəbə gedənə qədər nitq, dil, böyük və kiçik motorika, sosial və emosional inkişaf sahələrində vərdiş və bacarıqların əldə olunmasından ibarət fasiləsiz prosesdir. Bu bacarıqların hamısı bizim düşünməyimizə, prob-

lemləri həll etməyimizə, ünsiyyət qurmağımıza, emosiyalarımızı ifadə etməyimizə və əlaqələr qurmağımıza kömək edir.

Erkən uşaqlıq dövrü inkişafının məqsədi bütün azyaşlı uşaqların öz inkişaf potensiallarına nail olmasıdır. Buna iki faktor vasitəsilə imkan yaradılır:

• Anadan olandan məktəbə gedənədək bütün azyaşlı uşaqların onların inkişaf ehtiyaclarını qarşılayan yüksək keyfiyyətli əsas sağlamlıq, qidalanma, müdafiə və erkən təlim xidmətlərinə bərabər çıxış imkanına malik olması;

• Valideynlərə və uşaqlara qaygı göstərən digər şəxslərə dəstəyin göstərilməsi və onların öz kiçik uşaqlarını məsuliyyətli qaygı və pozitiv valideyn tərbiyəsi ilə təmin etməsi (11).

Erkən uşaqlıq dövrü bir yaşdan üç yaşa qədər olan dövrü əhatə edir.

Bu dövrdə əşyavi-manipulyativ fəaliyyət aparıcı fəaliyyət olur. Bu zaman bir növ xüsusi əşyavi fəaliyyətə keçid baş verir. Eyni zamanda uşağın böyüklərlə verbal ünsiyyət forması inkişaf edir. Aparılmış tədqiqatlar göstərmişdir ki, bu dövrdə uşaqlar nitqdən təfəkkür aləti kimi deyil, insanlarla birgə fəaliyyət zamanı əməkdaşlığı təmin etmək üçün əlaqə vasitəsi kimi istifadə edirlər.

Erkən yaş dövrü - insana xas olan bütün psixofizioloji proseslərin çevik formalaşması dövrüdür. Vaxtında başlanmış və erkən yaşlı uşaqların düzgün həyata keçirilən tərbiyəsi onların hərtərəfli inkişafı vacib şərtdir. Həyatının ilk iki il üçün uşaqların fiziki və əsəbi-psixi inkişafının sürətli tempi xarakterikdir. Bu dövrdə uşağın boyu və (xüsusilə ilk ilində) çəkisi sürətlə artır, orqanizmin bütün funksiyaları sürətlə inkişaf edir. Bir yaşın sonuna uşaq müstəqil yeriməyi öyrənir.

Erkən yaş dövründə uşaqlarda təməli qoyulmuş bacarıqlarda sonradan müsbət irəliləyişlər özünü göstərir. İnkişafın proqressiv formasının əldə edilməsi üçün uşaqların təlimə başladığı ilk anlardan düzgün istiqamət seçmək vacibdir. Təhsilə marağın, öyrənmə həvəsinin məhz uşaqların erkən yaş dövrlərində təməli qoyulur, böyük məktəbəqədər yaş dövründə əsas cizgilər formalaşdırılır və ümumi təhsil pilləsində lazım olan inkişaf tendensiyası əldə edilir (12).

Məktəbəqədər təhsil müəssisələrində aparılan işlər elə həyata keçirilməlidir ki, uşaqların təlim və inkişafını stimullaşdırsın və ya onlar təlimə etirazını bildirsin. Təlim mühiti açıq, məzmun baxımından zəngin və cazibədar olmalıdır. Məktəbəqədər təhsil, yaradıcılıq və təlim zövqünü təşviq etməli, həmçinin diqqət mərkəzində olmağı və uşağın öyrənmə, yeni təcrübə, bilik və bacarıqlar alması ilə maraqlanmasını gücləndirməlidir. Məktəbəqədər təhsil müəssisəsi uşaqların özləri və ətraf aləm haqqında anlayışlarını inkişaf etdirmələrinə kömək etməlidir. Tədqiqetmə, maraq və öyrənmə arzusu məktəbəqədər fəaliyyətin əsaslarını təşkil etməlidir. Bunlar uşağın təcrübələri, maraq, ehtiyac və fikirlərinə əsaslanmalıdır.

Erkən yaş dövrünü mütəxəssislər uşaq inkişafında çox məhsuldar dövr kimi qiymətləndirirlər. Bu yaş dövründə uşaqlarda intellektual və yaradıcı bacarıqlar formalaşmağa başlayır. Elmi araşdırmalar göstərir ki, bu dövrdə uşağın inkişafı illərə, aylara görə deyil, həftələr və hətta günlərə görə nəzərə alınır. Həyatın ilk 3 ilində şəxsiyyətin emosional və intellektual sferasının inkişafının böyük bir qisminin təməli qoyulur. Psixoloqlara görə, yaradıcı inkişafın ən yüksək potensialı 2 yaşdan 3 yaşadəkdir.

Erkən yaş dövründə uşaq inkişafı hiss edilə biləcək qədər əhəmiyyətli bir yol keçir. Uşaq ilkin olaraq ətraf aləmi qavramağa başlayır, ətrafdakı əşyaların adlarını öyrənir, onların əhəmiyyətini anlayır, ünsiyyət qurmağı, danışmağı və istəyini ifadə etməyi öyrənir. Məhz həyatının ilk illərində uşağın insanlara, özünə, ətrafa münasibətinin bünövrəsi qoyulur.

Bu dövrdə nitqin inkişafı ilə bağlı olaraq əyani-əməli təfəkkür inkişaf etməyə başlayır. Nitqin inkişafı və verbal ünsiyyət yaransa da, uşaqların təfəkkürləri müəyyən hərəkətlərlə daha çox bağlı olub, bu hərəkətlərdə təzahür edir. Bu dövrdə uşaqların fikri fəaliyyəti əsasən konkret cisim və hadisələrlə bağlı olur. Körpəlik yaş dövründə böyüklərlə ünsiyyət mühüm rol oynayır. Ünsiyyət daxilində uşaq özünü və istəklərini, emosiyalarını ifadə etməyi öyrənir. Söz siqnalları uşağın diqqətinin müəyyən obyektə yönəlməsinə, qeyri-ixtiyari diqqətin davamlılığına və dəqiqliyinə əsaslı təsir göstərir.

Erkən uşaqlıq yaşı dövründə uşaqlarda hərəki vərdişlər, xüsusilə əlin və ayağın mürəkkəb, tənzimlənmiş hərəkətləri sürətlə formalaşır. Bu cür hərəkətlər sonralar uşağın idrak və əqli qabi-

liyyətlərinin yaranmasında olduqca mühüm rol oynayır. Bir il ərzində uşaq oturmağı, iməkləməyi, ayaq üstə durmağı və nəhayət böyüklərin köməyi ilə yeriməyi öyrənir. Bütün bunların sayəsində uşağın ətraf aləm haqqında müvafiq məlumatlar əldə etməsi asanlaşır. Nəticədə körpədə xarici aləm haqqında təsəvvürlər formalaşmağa başlayır. Körpəlik dövründə uşaqda temperatur, lamisə, görmə, iybilmə və dadbilmə duyğuları kompleks şəkildə inkişaf etməyə başlayır. Bu, körpədə qavrayışın inkişafına imkan verir. Yeni doğulmuş uşaq gözü ilə obyektləri izləyə bilsə də hələ iki-dörd aya qədər onun görməsi nisbətən zəif olur. İkinci aydan başlayaraq uşaqda sadə rəngləri fərqləndirmək qabiliyyəti özünü göstərməyə başlayır. İki-üç aylıq körpə anasının gülümsəməsinə özünün gülümsəməsi və hərəkətlərinin ümumi fəallaşması ilə reaksiya verir. Bu canlanma kompleksi adlanır. Psixoloqlar belə bir qənaətə gəlmişlər ki, yaşlıların uşaqla intensiv emosional ünsiyyəti uşağın psixi inkişafına müsbət təsir etdiyi halda, laqeyd, ürəkdən gəlməyən ünsiyyət isə canlanma kompleksinin inkişafına mane olur və ümumi psixi inkişafı ləngidə bilir (12).

Erkən məktəbəqədər dövr inkişaf və təlim üçün böyük imkanlar vaxtıdır. Bu zaman uşaqlar səmimi münasibətlər, müzakirələr, tədqiqat və oyunlar vasitəsilə öyrənirlər. Onlar dili, ondan necə və nə vaxt istifadə etməyi öyrənirlər; kiçik uşaqlar başqaları və ətraf mühit ilə qarşılıqlı fəaliyyətdə öyrənirlər. Onlar da böyük uşaqlar kimi özləri barədə qərarlar qəbul etmək, onlar haqqında yaradıcı və təşəbbüskar olmağı öyrənirlər.

Həyatının ilkin illərində uşağın inkişafı ilə əlaqədar onun idrak fəallığı idraki fəaliyyətə getdikcə daha çox yaxınlaşır. Məktəbəqədər dövrdə uşaqlarda dünyanın bütün sonrakı həyatı boyunca təkmilləşdiriləcək ilkin elementar obrazı yaranır. Məktəbəqədər yaşlı uşağın böyüklərin təsiri ilə şərtləndirilmiş inkişaf və özünü inkişaf etdirmə prosesi çox sıx qarşılıqlı əlaqəlidir.

Erkən yaşlı uşağın həyatında hissi (sensor) təcrübənin əhəmiyyəti böyükdür. Sensor inkişaf uşaqlarda duyğu proseslərinin, ətraf aləmin əşya və hadisələri haqqında təsəvvürlərin inkişafıdır. Uşaq dünyaya hazır hiss orqanları ilə göz açır. Onun gözü, qulağı, dərisi həssasdır. Bu ətraf aləmin dərk edilməsi üçün zəmin yaradır. Erkən yaşlı uşaqların sensor inkişafı-onun qavramasının inkişafı və əşyaların xarici xüsusiyyətləri: onların forma, rəng, həcm, məkanda yerləşməsi, eyni zamanda qoxu, dad və s. barədə təsəvvürlərin formalaşdırılmasıdır. Sensor inkişafın tam aparılması üçün sensor tərbiyə işi məqsədyönlü təşkil olunmalıdır.

Körpəlik dövründə uşaqlarla təlimim təşkili məsələlərinə onların yaş və fiziki xüsusiyyətlərini nəzərə alaraq, xüsusi diqqət yetirmək lazımdır. Əvvəlcə həyatın ikinci ilində yaşayan uşaqlar üçün təşkil edilən oyun və fəaliyyətlərin didaktik müddəalarına nəzər yetirək. Didaktik oyun və məşğələlər planauyğun planlaşdırılaraq, həyata keçirilirsə, o zaman müsbət nəticələr verir.

Körpəlik yaş qruplarında uşaqlarla oyun-məşğələlərin təşkilinin əsas prinsipləri aşağıdakılardır:

1. Uşaqların yetkin həyata hazırlamaq üçün ən yaxşı yol onlara ehtiyacı olanların verilməsi;

2. Uşaqların idraki, fiziki, psixi və mənəvi cəhətdən sağlamlığının təmin edilməsi;

3. Oyun-məşğələlərin inteqrativ şəkildə öyrədilməsi;

4. Uşaqlara məsuliyyətli, səhvlərini sərbəst şəkildə anlamağa, qərarlar verməyə və seçimlər etməyə imkan yaradılması;

5. Uşaqların inkişafının izlənilməsi və qiymətləndirilməsi;

6. Uşaqların öyrənməsi üçün materiallar və bacarıqların yaşamüvafiq olması;

7. Uşaqlar nə edə bilməsi (və ya edə bilmədikləri şeylər) uşağın təhsilinin başlanğıc nöqtəsi olması;

8. Əməkdaşlığın (həm böyüklər, həm də uşaqlarla) böyük əhəmiyyətə malik olması;

10. Keyfiyyətli təhsil üç şeydən (uşaq, məzmun və uşağın inkişaf etdiyi və öyrəndiyi inkişafetdirici mühitin zəruriliyi) ibarət olması.

Körpəlik dövründə uşaqların hər bir davranışını, irəliləmə və geriləməsini diqqət mərkəzində saxlamaq vacibdir. Bunun üçün müəllim-tərbiyəçi özü üçün xüsusi müşahidə cədvəlləri və qrupda olan hər bir uşağa uyğun qrafa tərtib edə bilər. Burada hər bir uşağın inkişaf istiqaməti özünəməxsus şəkildə qeyd olunmalı və inkişaf izlənilməlidir. Bu yaşda nəzərdən qaçan

problem, nöqsan və qüsurlar uşağın sonrakı yaş mərhələlərində ciddi narahatlıqlara yol açа bilər.

Məktəbəqədər yaşlı uşaqların fəaliyyətinin böyük bir hissəsini onların sevimli məşğuliyyəti olan oyun təşkil edir. Oyun uşağın mənasız məşğuliyyət növü olmayıb hər elementi ilə onları öyrədən və inkişaf etdirən bir fəaliyyət növüdür. Əslində oyun məktəbəqədər yaşlı uşaqların aparıcı fəaliyyətidir. Bu o deməkdir ki, bu yaş dövründə uşaqların inkişafı üçün məhz oyun vacibdir. Oyunun uşaqlara inkişafetdirici təsiri böyüklərin iştirakı olmadan mümkün deyil. Valideynlər uşaqların oyunlarına qatılmaqla həm onların sevimli oyun yoldaşları, həm də bilavasitə müəllimləri rolunda çıxış edirlər. Uşaq nə qədər kiçik olursa, valideyndən oyun prosesinə qoşulmağı daha çox tələb edir. Valideynlərin oyun prosesi zamanı diqqətli olmaları, öyrədici və yaradıcı məqamları yaxşı istifadə etmələri vacibdir. Uşaqlar üçün əyləncə xarakteri daşıyan oyun, böyüklər üçün öyrətmə vasitəsi kimi çıxış edir.

Uşaqlar gündəlik həyatdan ətrafdakı insanları təqlid etməklə səhnəciklər yaradır. Bunlardan bəhs edən oyun içində öz oyunlarına daxil etmək qabiliyyətini inkişaf etdirdiyi üçün bacarıqları inkişaf edir. Onlar böyüdükcə təsəvvür etmək qabiliyyəti oyunların təbiətinə təsir göstərir. Onların oyunları getdikcə daha mürəkkəb olur və yaradılmış hekayələr daha çox simvol və epizodları əhatə edir. Yaradıcı oyunu inkişaf etdirir, çünki onlar müşahidə etdiklərini öz oyunlarına daxil edə bilirlər. Fantaziya oyunu uşaqların yaradıcılığı və təxəyyülünə kömək edir, onları həvəsləndirir.

Fikrimizcə, erkən yaş dövrü və eləcə də ümumilikdə məktəbəqədər yaş dövründə uşaqlarda əsas diqqəti onların öz sevdikləri və məcburiyyət olmadan həyata keçirdikləri fəaliyyət növünə yönəltmək lazımdır. Uşaq nə qədər sevdiyi fəaliyyət növü ilə məşğul olarsa, bir o qədər azad və məsuliyyətli böyüyər. Uşaqları bu cür böyüməsinə evdə valideynlər, məktəbəqədər təhsil müəssisəsində isə tərbiyəçi-müəllimlər məsuldurlar. Uşağı bezdirmədən əməyi sevdirmək, təlimi sevdirmək, eləcə də onlarda tərbiyənin müxtəlif elementlərini formalaşdırmaq günümüzün vacib tələbidir.

Uşaqların inkişafı və təlimi məqsədilə təşkil edilmiş pedaqoji prosesdə təlim metodları və bu metodlardan istifadənin xüsusiyyətləri oyun xarakterinə malik olduğundan, oyun texnikalarını istifadə etməklə, didaktik oyun-dramatizasiya şəklində aparılır. Pedaqoq tərəfindən fəal şəkildə təşkil olunan təlim prosesi izahat, müşahidə, birgə fəaliyyət metodu, uşaqlara verilən suallar səmərəli bir metoddur. Beləliklə, didaktik prinsiplərə əsaslanmaq və tərbiyəçi-müəllim tərəfindən təlim metodlarının düzgün seçilməsi hər bir uşağın hərtərəfli inkişafını təmin edir, həm də uşaqların ilkin bilik və bacarıqlara yiyələnmələrini təmin edir.

**Problemin aktuallığı**. Məktəbəqədər yaş dövrü uşağın ilkin inkişafının ilk pilləsi olduğundan bu sahəyə həsr edilmiş bütün tədqiqat və elmi araşdırmalar xüsusi aktuallıq kəsb edir. Məktəbəqədər yaş dövründə, xüsusilə də erkən yaş dövründə uşaqların inkişafının və təlim əməyinin düzgün əsaslarda qurulması, uşağın gələcək həyatının yönəlişliyinin təmin olunmasında mühüm əhəmiyyətə malikdir.

**Problemin yeniliyi.** Məktəbəqədər təhsil müəssisələrində erkən məktəbəqədər yaşlı uşaqların təlim sistemində yeni oyun və məşğələlər vasitəsilə təlimin daha optimal təşkil edilməsidir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə praktik cəhətdən məktəbəqədər təhsil sahəsində məşğul olan bütün mütəxəssislər, eləcə də valideynlər üçün əhəmiyyətlidir. Məqalədə uşaqların inkişafı və onların təlim və oyun fəaliyyəti ilə əlaqədar verilmiş göstərişləri izləyərək, müasir dövrdə təhsil sisteminin qayəsini təşkil edən şəxsiyyətyönlülük prinsipinin tələblərinə əməl etmək olar. Məqalədən uşaqların tərbiyə və təlimi ilə məşğul olan hər kəs və valideynlər faydalana bilərlər.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. http://www.-president.az/articles/9779 24 oktyabr 2013.

2. İnnovativ dərs modelləri. Müəllimlər üçün metodik vəsait. -Bakı, Açıq Cəmiyyət İnstitutu – Yardım Fondu, 2002.

3. Məktəbəqədər təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. 16 iyun 2017. http://www.-president.az/articles/24248

4. "Məktəbəqədər təhsilin dövlət standartı və proqramı". 16 iyul 2010-cu. il. http://www.edu.gov.az/

5. Veysova, Z. Fəal (interaktiv) təlim: Müəllimlər üçün vəsait, UNİCEF, 2007.
6. Developmentally Appropriate Practice in Early Childhood Programs Serving Early Learning Standards, Illinois State Board of Education, -2002.
7. Developmentally, Appropriate Practice in Early Childhood Programs Serving Children from Birth to Age 8, Copple, C., Bredekamp, S., NAEYC, Washington DC, 2002.
8. Куррикулум по воспитанию детей раннего и дошкольного возраста (1-7 лет) Респ. Молдова, Ин-т педагогических наук. – Ch. : S. n., 2007 (Combinatul Polig.). – 108 c.
9. Селевко, Г.К. Современные образовательные технологии / Г.К. Селевко. -Москва, 2004
10. Тимофеева, Н.В. Занятие в детском саду / Н.В. Тимофеева, Ю.В. Зотова, -Волгоград, 2009.
11. Cocuk gelişimi ve eğitimi. erken çocukluk eğitiminde temel ilkeler. Ankara2011.40s. http://www.megep.meb.gov.tr/
12. 0-36 aylıq çocuklar için etkinlik kitabı. UNİCEF-in teknik desteyi Ile hazırlanmışdır. 80s. http://tegm.meb.gov.tr/

**E-mail:** ruxsare_mirzazade@yahoo.com
**Rəyçilər**: *ped.ü.elm.dok., prof*. **İ.H. Cəbrayılov,**
*ped.ü.fəls.dok.dos.* **L.K. Cəfərova**

**Redaksiyaya daxil olub:** 17.05.2021